*"Siyasətin islah edilməsi üçün güc və səlahiyyətini "cəmiyyət mənafeyi" istiqamətində sərf edəcək daha əxlaqlı şəxslərin seçilməsi və onların hakimiyyətə gətirilməsi ilə bağlı bir təklifdən söhbət belə gedə bilməz. Oyun qaydaları ilə müəyyən edilir və daha yaxşı bir oyuna ancaq onun qaydalarını dəyişdirməklə nail olmaq olar".*

***James M. Buchanan, Nobel mükafatlı iqtisadçı***

# Korrupsiya ilə mübarizədə siyasi partiyaların maliyyələşdirilməsi problemi




**Elşən R. BAĞIRZADƏ**
*dis., Azərbaycan Dövlət İqtisad Universiteti Magistr Hazırlığı Mərkəzi*



***Bu gün korrupsiya ilə mübarizə çərçivəsində siyasi partiyaların maliyyələşdirilməsi dünyanın demək olar ki, bütün ölkələrində müzakirə və mübahisələrə səbəb olan başlıca problemlərdəndir. Bu onunla bağlıdır ki, son dövrlərdə korrupsiya daha çox siyasi problem kimi təzahür edir və onun aradan qaldırılması da ilk növbədə cəmiyyətin siyasi təşkilinin sağlam təməllər əsasında qurulmasını tələb edir.***


Məlumdur ki, siyasi partiyalar müasir demokratik siyasi sistemlərin bir növ sinir sistemi kimi qəbul edilir. Rəqabətə əsaslanan siyasi partiyalar sisteminin formalaşdırılmasında və onların normal fəaliyyət göstərməsində isə bir sıra mühüm amillərin rol oynadığını demək mümkün olsa da, etiraf edilməlidir ki, bu amillər arasında maliyyə fundamental xarakter daşıyır. Bu gün dünyada peşəkarlaşan partiya qurumları və gün-gündən çeşidlənən təbliğat texnologiyalarının mövcudluğu siyasi partiyaların maliyyə ehtiyaclarını da hədsiz şəkildə artırır.

**Siyasət, maliyyə və korrupsiya.** Hazırda siyasi partiyaların maliyyələşdirilməsində mühüm istiqamətlərdən biri onların seçki proseslərində maliyyələşdirilməsidir ki, bu da ən bahalı fəaliyyətlərdən hesab olunur. Afişaların vurulması, broşüraların hazırlanıb paylanması və televiziya reklamlarından tutmuş mitinqlərə qədər bir sıra tədbirlərin maliyyələşdirilməsi yüksək xərclər tələb edir. Bu zaman seçki kampaniyalarının bitərəf vətəndaşlar üzərində mühüm təsirinin olduğunu düşünən siyasi partiyalar bəzən bu tipli fəaliyyətlərini daha da genişləndirməyə can atırlar. Ancaq təcrübə göstərir ki, seçki prosesində partiyaların bu tipli fəaliyyətlərinin maliyyələşdirilməsi ilə onların iqtidara gəldikdən sonra səbəb olduqları korrupsiya cinayətləri arasında mühüm əlaqə vardır. Həmçinin seçki prosesində olduğu kimi, seçkilərarası dövrdə də siyasi partiyaların maliyyələşdirilməsi bu baxımdan əhəmiyyətlidir. Təcrübə göstərir ki, siyasi sistemdə mənbəyi məlum olmayan pul hər növ maddi vasitəyə çevrilərək, nəticədə iqtidarı ələ keçirməyə belə gətirib çıxara bilir. Yeni iqtidarlar isə onları maliyyələşdirən qrupların mənafeləri istiqamətində kütləvi korrupsiya əməllərinə yol verə bilirlər. Əgər bu qüvvələr ölkə xaricindəndirsə, onda vəziyyət daha da mürəkkəb xarakter alır.

Bir sıra demokratik ölkələrdə siyasətin qanunsuz maliyyələşdirilməsi 1970-ci illərdən bəri geniş yayılmağa başlamışdır. Təcrübə göstərir ki, gündəlik zəruri ehtiyaclarını üzvlük ödəmələri və ianələr kimi leqal gəlir mənbələri ilə ödəyə bilməyən siyasi partiyaların renta axtarışında olan qeyri-leqal maliyyə resurslarının təsiri altına düşmə riski yüksəkdir. Belə olduğu halda siyasi partiyaların maliyyələşdirilməsi ilə bağlı effektiv fəaliyyət göstərə bilən və eyni zamanda korrupsiya hallarının qarşısını ala bilən bir sistemin formalaşdırılması da zərurətə çevrilir.

**Siyasi partiyaların maliyyələşmə modelləri.** Hazırda siyasi partiyaların maliyyələşdirilməsi ilə bağlı normalar müxtəlif ölkə-

**Korrupsiya risqi baxımından siyasi partiyaların maliyyələşdirilməsi modelləri**




lərdə bir-birindən fərqli qaydadadır. Bu baxımdan, yeganə ideal bir modeldən danışmaq çətindir. Belə ki, ölkələrin institutsional strukturu, siyasət-iqtisadiyyat arasında kök salmış ənənəvi münasibətlər sistemi və tarixi təcrübələrindən asılı olaraq müxtəlif prioritetlərin meydana çıxdığını müşahidə edirik. Bu gün siyasi partiyaların maliyyələşməsində 3 əsas modeldən danışmaq mümkündür. Bu modellərin təkbaşına olduğu kimi, birgə tətbiq olunmasına da tez-tez təsadüf edilir.

**Birinci model** siyasi partiyaların dövlət və ya ictimai resurslardan maliyyələşməsidir. Bu zaman siyasi partiyaların dövlət resurslarından maliyyələşməsi obyektiv kriteriyalara əsaslanmışdır. Onlar arasında ən çox istifadə olunanı seçkilərdə aldıqları səs faizləri və parlamentə seçilən nümayəndələrinin sayının nəzərə alınmasıdır. Hansı partiya bu kriteriyaya uyğundursa, əvvəlcədən müəyyən edilmiş məbləğdə dövlət yardımı ala bilir. Həmçinin təşkilatlanma səviyyəsindən asılı olaraq, siyasi partiyaların müxtəlif maliyyələşmə mexanizmlərindən söhbət açmaq mümkündür. Siyasi partiyaların dövlət və ya ictimai resurslardan maliyyələşdirilməsi modelinin korrupsiyatörədici potensialı demək olar ki, yoxdur. Siyasi partiyaların tam şəkildə və ya qismən bu şəkildə maliyyələşməsi dünyada ən çox müşahidə olunan modeldir. Beləliklə, bu modeldə siyasi partiyalar bir növ sosial xidmət göstərən qurumlar kimi qəbul edilir.

**İkinci model** siyasi partiyaların könüllü təşkilatlarda olduğu kimi, üzvlük haqları ilə maliyyələşməsidir. Bu model daha çox qatı ideologiyalara malik partiyalar tərəfindən istifadə edilir. Modelə görə, hər üzv müəyyən bir məbləğdə və ya imkanına uyğun olaraq, partiyasının maliyyələşdirilməsində iştirak edir. Bu sistemdə üzvlərinin maliyyə dəstəyi ilə iqtidara gələn partiyaların sonradan bu üzvlərə imtiyazlar verməyə çalışması ciddi bir problem kimi qarşıya çıxır. Əsasən bu tendensiya könüllü şəkildə yüksək məbləğdə üzvlük haqqı ödəyən üzvlər üçün daha aktualdır. Bu halda siyasi partiyaların maliyyələşməsi ilə korrupsiya arasındakı əlaqənin təmin edilməsində zəminyaradıcı funksiya daşıyan üzvlük haqlarının müəyyən normalarla tənzimlənməsi zərurətə çevrilir. Yəni sabit üzvlük haqları sistemi tətbiq edilir ki, bu da korrupsiyayaradıcı potensialı olduqca məhdudlaşdırır. Xüsusilə Avropa demokratiyalarında, əsasən radikal solyönümlü partiyaların maliyyələşməsi, həmkarlar ittifaqlarında olduğu kimi, sabit üzvlük sisteminə əsaslanır. Beləliklə, partiyalar dövlət yardımlarına nisbətən daha çox maliyyə müstəqilliyinə malik olmaqla, daha tənqidi siyasi xətt tuta bilirlər.

**Üçüncü model** partiyaların ianələr vasitəsilə maliyyələşməsinə əsaslanır. Xüsusilə Amerika sistemində partiyalara verilən ianələr əhəmiyyətli şəkildə yüksəkdir. İanə verən fərd və qurumlar həmin partiyanın siyasətini dəstəkləməklə yanaşı, onların reallaşdırılması üçün də imkanlar yaradırlar. Hər bir ölkədə partiya siyasəti ilə fərd və qurumların mənafelərinin uzlaşması mümkündür. Ancaq burada partiya siyasətinin prioritetliyi əsas olmalıdır. Bu modeldə əsas problem fərd və qurumların mənafelərinin prioritetlik qazandığı və partiya siyasətinin buna uyğunlaşdığı hallarda meydana çıxır. Yəni partiya siyasəti passiv mövqeyə düşməklə, ayrı-ayrı fərd və qurumların mənafelərinə uyğun-

laşmağa başlayır. Başqa sözlə, partiya siyasəti bir növ satın alına bilir. Belə sistemlərin korrupsiyayaradıcı potensialı olduqca yüksəkdir. Bu model daha çox anqlosakson ölkələrində müşahidə edilir. Hər istəyən şəxs və ya qurum siyasi partiyalara ianə verə bilir. Bu zaman ianələrin miqdarı, kim tərəfindən verildiyi, hansı namizədə edildiyi, ianə verənlə siyasi təzyiq qrupları arasındakı əlaqə səviyyəsi, ianənin mənbəyi, forması, seçkidən əvvəl, yoxsa sonra edildiyi qeydiyyata alınır. Həmçinin siyasi partiyanın bu resursları hansı xərclər üçün istifadə etdiyi də açıq şəkildə bəyan edilir. Bu modeldə partiyalara edilən ianə və yardımların ictimaiyyət qarşısında açıq və şəffaf bir şəkildə həyata keçirilməsi zəruridir. Beləliklə, kimin hansı partiyaya nə qədər maliyyə dəstəyi verdiyi müəyyənləşdirilə bilir. Əks halda, gizli və örtülü şəkildə edilən maliyyə yardımlarının iqtidara gəldikdən sonra bir növ "əvəzinin ödənilməsi" mütləq baş verəcəkdir.

Nəzərə almaq lazımdır ki, partiya və namizədlərə ayrı-ayrı şəxs və qurumlar tərəfindən böyük həcmli ianələrin edilməsi korrupsiya şübhələrini də paralel şəkildə meydana çıxarır. Bu baxımdan üstünlük verilməsi zəruri olan seçim ianə və yardımların kiçik məbləğlərdə və ya üzvlük haqqı formasında edilməsidir.

Bu gün siyasi sistemin korrupsiyayaradıcı potensialının qarşısını almaq məqsədilə müxtəlif tədbirlərdən danışmaq olar. Bunun üçün daha uğurlu vasitə Fransa, İngiltərə və ABŞ kimi qədim və köklü ənənələrə, güclü demokratik siyasi sistemə malik ölkələrin təcrübəsinin öyrənilməsidir.

**Fransa modeli.** Fransada bu istiqamətdəki ilk akt 1988-ci ildə qəbul edilən "Siyasi həyatın maliyyələşdirilməsi qanunu"dur. Sonra 1990-cı ildə "Siyasi xərclərə məhdudiyyət qoyulması haqqında qanun" qəbul edilmişdir. Həmçinin 1993-cü ildə "İqtisadiyyatda və dövlət idarəetməsində korrupsiyanın qarşısının alınması və şəffaflığın təmin edilməsi haqqında" qanun da qəbul edilmişdir. 1995-ci ildə siyasi həyatın maliyyələşdirilməsinə aid qanun yenidən işlənərək dövlət imkanlarını istifadə edən məmurlara şəxsi əmlakları ilə bağlı bəyanetmə məcburiyyəti təsbit edilmişdir. Əvvəllər Fransada siyasi partiyaların xüsusi şəxslərdən yardım və ianə almaları qadağan olsa da, 1995-ci ildən sonra bu qadağa aradan qaldırılmışdır. Ölkədə siyasi partiyalara ayrı-ayrı qurumlar tərəfindən ianələr verilməsi isə hələ də qadağandır. Həmçinin ayrı-ayrı şəxslər tərəfindən edilən ianələrə də müəyyən məhdudiyyətlər qoyulmuşdur. Bu sistemə görə, illik xüsusi ianələrin maksimum məbləği partiya və şəxslərin məcmusu üçün 7600 avrodur və 150 avronu keçən ianələrin çeklə edilməsi məcburidir. Eyni zamanda siyasi partiyalara edilən yardımların ictimaiyyətə açıqlanması da məcburidir. Fransada seçki ilə bağlı siyasi partiya xərclərinə məhdudiyyət də qoyulmuşdur. Beləliklə, partiyaların böyük həcmli kampaniya xərclərinin də qarşısı alınmışdır. ABŞ-dakı analoji sistemə uyğun olaraq xarici qurumların və dövlətlərin siyasi partiyalara yardım etmələri də qadağan edilmişdir. Xarici fiziki şəxslərin ianələri isə bu baxımdan istisnadır. Fransada partiyaların üzvlük haqlarının ümumi partiya gəlirləri daxilindəki yeri 1995-1998-ci illər arasında 8-22% təşkil etmişdir. Siyasi partiyaların üzvlük haqları vasitəsilə özlərini maliyyələşdirə bilməməsinin əsas səbəbi üzv saylarının az olmasıdır. Fransada ümumi seçicilərin yalnız 1,6%-nin partiya üzvlüyü var. Partiya gəlirləri arasında yardım və ianələrin nisbəti isə 4-6% arasında dəyişir. Fransada 1988-ci ildən bəri siyasi partiyalara və üzvlərə dövlət yardımı edilir. Dövlət yardımı ala bilmək üçün müəyyən şərtlər var. Məsələn, dövlət yardımından yararlanmaq üçün partiyaların ən azı 50 seçki bölgəsində seçkilərdə iştirak etməsi və ilk turda ən azı 1% səs alması zəruridir. Partiyaların aldıqları səs faizi artdığı halda nisbi olaraq dövlətdən aldıqları dəstək səviyyəsi də aşağı düşür. Buna görə edilən dövlət yardımlarının kiçik partiyaların gəlirləri içərisindəki payı böyük olduğu (təxminən 90%) halda, böyük partiyaların gəlirləri içərisindəki payı (təxminən 50%) aşağı düşür. Fransada 9000-dən çox əhalisi olan böyük məntəqələrdəki seçki xərclərinə müəyyən məhdudiyyətlər tətbiq edilir. Belə yerlərdə seçki kampaniyalarına və siyasi fəaliyyətlərə istiqamətlənən xərclər Milli Siyasi Maliyyələşmə Komitəsi tərəfindən təftiş edilir. Həmin komitə xərcləri münasib hesab etməklə yanaşı, rədd də edə bilər. Nəticədə xərcləri rədd edilən partiyanın məhkəməyə müraciət etməsi mümkündür.

**İngiltərə modeli.** İngiltərədə siyasi sistemin maliyyələşməsi 1983-cü ildə qəbul edilən "Vətəndaşların təmsili haqqında" qanunla tənzimlənir. Bu qanun namizədlərin siyasi məqsədli xərclərinə nəzarət etməyə və məhdudlaşdırmağa yönəlmişdir. Xərclərə yönələn məhdudiyyətlərdə əsas meyar qeydiyyatlı seçici sayıdır. Xərc limiti daxilində qalmaq şərti ilə fiziki və hüquqi şəxslər tərəfindən edilən ianə və yardımlarla bağlı hər hansı bir məhdudiyyət yoxdur. Həmçinin

ianə və yardım edən şəxs və qurumlar haqqında informasiyaların ictimaiyyətə açıqlanması da zəruri hesab olunmur. Yardım və ianələr natural formada ola bildiyi kimi, nağd formada da ola bilər. Seçki prosesinin sonunda siyasətçilər xərclərini müvafiq dövlət orqanına bildirməlidirlər. Bu orqanın göstərilən bildirişlərin doğruluğunu araşdırma səlahiyyəti var.

**ABŞ modeli.** ABŞ-da siyasi sistemin maliyyələşməsi ilə bağlı məsələlər "Federal seçki kampaniyası" qanunu çərçivəsində tənzimlənir. Bu qanun İngiltərədəki kimi xərc məhdudiyyətləri haqqında deyil, yardım və ianələr və bunlara aid informasiyaların ictimaiyyətə açıqlanması ilə bağlı məsələlər üzərində dayanır. Federal seçkilərdə fərdlərin hər bir üzv üçün edə biləcəkləri yardım və ianə məbləği 1000 dollar, illik məcmu siyasi yardım və ianə məbləği isə 25000 dollarla məhdudlaşdırılmışdır. Beləliklə, hansı siyasətçiyə, hansı şəxs və qurumun seçkilərdə nə qədər maddi kömək etdiyinə nəzarət olunur. Qurumların verdiyi ianələrdə isə bu məhdudiyyətlər diversifikasiya edilmişdir. ABŞ-da xarici ölkə vətəndaşlarının seçki yardımı qadağan edilmişdir. Sistemin şəffaflıq təməlinə dayanması korrupsiya doğuracaq mənafe münasibətlərinin aradan qaldırılmasına kömək edir. Ancaq mütəxəssislər ABŞ sisteminin bəzi dolayı yardımlara açıq olduğunu bildirir və vaxtaşırı bu yardımların korrupsiyayaradıcı potensialından da danışırlar.

**Azərbaycan modeli və təkmilləşmə istiqamətləri.** Azərbaycanda siyasi sistemin demokratik əsaslarla formalaşdırılması ümdə vəzifələrdən biri kimi qarşıda dayanmışdır. Ölkənin siyasi sisteminə nəzər saldıqda görürük ki, demək olar ki, bütün zəruri demokratik təsisatlar formalaşsa da, hazırda onların fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində görülməli işlər hədsizdir. Siyasi partiyaların inkişafı və onların maddi bazasının gücləndirilməsi işi də bu qəbildəndir. Ölkədə siyasi partiyaların maliyyələşdirilməsi iki başlıca normativ sənəd - "Siyasi partiyalar haqqında" AR Qanunu (17-21-ci maddələr) və Seçki Məcəlləsinin (XIV fəsil) müvafiq normaları ilə tənzimlənir. Bu normalara əsasən qeyd edə bilərik ki, Azərbaycanda siyasi partiyaların fəaliyyətinin maliyyələşdirilməsində üzvlük haqları və ianələr vasitəsilə maliyyələşmə istər seçki proseslərində, istərsə də seçkilərarası dövrlərdə tətbiq olunsa da, dövlət tərəfindən maliyyələşmə yalnız seçki prosesində tətbiq olunur. Həmçinin siyasi partiyaların maliyyələşməsində xarici dövlətlər, habelə xarici hüquqi və fiziki şəxslər, eyni zamanda beynəlxalq təşkilatlar, dövlət idarələri, xeyriyyə və dini müəssisələr, həmkarlar ittifaqları və kütləvi hərəkatların iştirak etməsi qadağan edilmişdir. Bununla yanaşı, korrupsiya riskinin aradan qaldırılması məqsədilə partiyaların iqtisadi və siyasi səmərə əldə etmək məqsədilə verilən ianələri qəbul etməsinə də qadağa qoyulmuşdur. Eyni zamanda ianə verən şəxslərin adı, soyadı, ünvanı, verdiyi ianənin məbləğinin partiyanın maliyyə hesabatında öz əksini tapması tələbi də qoyulmuşdur. Mövcud qaydalara görə, siyasi partiyaların gəlir mənbələri, vəsaitlərinin məbləği və ödəməli olduğu vergilərə nəzarət Vergilər Nazirliyi, seçki prosesində yaradılmış seçki fondlarının fəaliyyəti üzərində nəzarəti isə Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyalarında fəaliyyət göstərən nəzarət-təftiş xidməti həyata keçirir.

Göründüyü kimi, Azərbaycanda siyasi partiyaların maliyyələşdirilməsinin qanunvericiliklə təsbit edilmiş mövcud modeli demək olar ki, inkişaf etmiş ölkələrdəkindən heç də geri qalmır. Lakin problem ondadır ki, ölkədə tətbiq olunan mövcud model Azərbaycanın sosial-iqtisadi inkişafı və cəmiyyətin siyasi-hüquqi təşkilinin hazırkı səviyyəsi ilə qətiyyən uzlaşmır və belə uyğunsuzluq inkişaf edə bilməyən və eyni zamanda qeyri-şəffaf maliyyələşməyə malik siyasi partiyalar sisteminin formalaşmasını doğurur. İlk növbədə ona görə ki, ölkədə siyasi yetkinlik səviyyəsi o qədər də yüksək olmadığından əhalinin siyasi partiyalar çərçivəsində təşkilatlanma səviyyəsi də aşağıdır. Bu gün siyasi partiyalarda birləşmiş Azərbaycan vətəndaşları ümumi seçicilərin heç 10%-ni təşkil etmir. Eyni zamanda orta aylıq əməkhaqqı 200 ABŞ dollarını keçməyən ölkədə partiyalı vətəndaşların yüksək üzvlük haqları və ya ianələr verməsindən danışmaq da mümkün deyildir. Digər tərəfdən, hazırkı siyasi partiyaların ideoloji baza və praktiki fəaliyyət baxımından demək olar ki, bir-birini təkrarlaması, vaxtaşırı baş verən seçki uğursuzluqları, öz fəaliyyətlərini konkret sosial təbəqələrə istiqamətləndirə bilməmələri və əksərinin daha çox kütlə partiyası olması səbəbindən səmərəli siyasi partiya-özəl sektor əlaqələrinin də qurulmasına imkan vermir ki, nəticədə bu sektordan cəlb edilən ianələr də elə yüksək səviyyədə deyildir. Bu gün partiyaların intellektual fəaliyyət və xüsusi əmlakdan gələn gəlirləri də çox aşağıdır. Belə ki, əksər partiyaların normal qərargahları belə olmamaqla yana-

şı, həmçinin hər hansı mətbu nəşr və məqalənin yayımından əldə olunan gəlirləri də demək olar ki, yox səviyyəsindədir.

Nəticədə nə baş verir? İlk növbədə partiyalar cəmiyyət həyatının ayrı-ayrı istiqamətlərinin inkişafına həsr olunmuş sosial-iqtisadi proqram, konsepsiya və qanunların hazırlandığı, başqa sözlə, faydalı siyasi biliklərin istehsal olunduğu elmi-siyasi mərkəzlərə çevrilə bilmir. Eyni zamanda bir qrup lideri yaşatmaq və seçkidə iştirakını təmin etmək məqsədilə, əksəri ölkə xaricindən olmaqla, qeyri-leqal maliyyələşmə mənbələrinə üz tutulur. Belə bir sistemin mövcudluğu isə nə həmin partiyaların, nə də mövcud siyasi sistemin inkişafına zəmin yarada bilər.

Yeganə çıxış yolu dövlətin gəlirlərinin ildən-ilə yüksəldiyi indiki şəraitdə siyasi partiyaların maliyyələşməsinin mühüm bir hissəsinin dövlət təminatı altına alınmasıdır. Yəni indiki halda olduğu kimi, siyasi partiyaların yalnız seçki prosesində deyil, həmçinin seçkilərarası dövrdə də dövlət büdcəsindən əhəmiyyətli şəkildə maliyyələşdirilməsi təmin olunmalıdır. Bu zaman inkişafa istiqamətlənən rəqabət mühitinin təmin edilməsi məqsədilə maliyyələşməyə seçkidə aldığı səslər, partiya üzvlərinin sayı və s. kimi tələblər də qoyula bilər. Hesab edirik ki, belə bir addımın atılması siyasi sistemin inkişafının, onun təhlükəsizliyinin və həmçinin də şəffaflığının təmin edilməsinə mühüm şərait yaradacaqdır.

Siyasi sistemin maliyyələşdirilməsi ilə bağlı normalar formalaşdırılarkən konkret məqamlara diqqət yetirilməsi olduqca zəruridir. İlk növbədə normalar açıq və asan şərh edilə bilən olmalıdır. Belə ki, mürəkkəb normalar sistemi icra prosesində bir sıra problemlərin meydana gəlməsinə səbəb olacaqdır. Eyni zamanda bu normalar reallığa əsaslanmalıdır. Bu zaman reallığın ölçüsü sistemin praktiki fəaliyyətinin düzgün dərk edilməsidir. Nəhayət, normaların müntəzəm şəkildə dövrün tələblərinə uyğunlaşdırılması da vacibdir. Həmçinin normalar tətbiq olunduğu zaman problemlə bağlı bütün tərəflərin fikirlərinin nəzərə alınması və konsensus əldə edilməsi sistemin effektiv fəaliyyət göstərməsinə kömək edəcəkdir.

Normalara əməl etməyən siyasi partiyalar və namizədlərə veriləcək cəzaların qanun pozuntusuna adekvat və kifayət qədər səmərəliliyə malik olması da zəruridir. Əks halda, hüquqpozma və cəzalar arasındakı uyğunsuzluqların mövcudluğu ya korrupsiyanın geniş yayılmasına, ya da siyasi fəaliyyətlərin məhdudlaşdırılmasına imkan yaradacaqdır.

Beləliklə, hesab edirik ki, ölkədə siyasi sistemin maliyyələşdirilməsinə istiqamətlənmiş problemlərin vaxtaşırı aradan qaldırılması və korrupsiyanın qarşısının alınması siyasi sistemin effektiv fəaliyyət göstərməsi baxımından mühüm elementlər hesab olunmalıdır. Əks halda bu sistem, ölkə mənafelərini reallaşdıran mexanizm olmaqdan çıxıb, fərdi mənafelərin maksimumlaşdırıldığı bir mexanizmə çevriləcəkdir.